HAL open science

# Azərbaycanda əlilliyi olan şəxslərin məşğulluğu və inklüziv əmək bazarının qurulması

Sakhavat Yusifov

▶ To cite this version:

Sakhavat Yusifov. Azərbaycanda əlilliyi olan şəxslərin məşğulluğu və inklüziv əmək bazarının qurulması. Kekalove Adaptive. 2022. ⟨hal-04181414⟩

HAL Id: hal-04181414
https://hal.science/hal-04181414v1

Submitted on 15 Aug 2023

**HAL** is a multi-disciplinary open access archive for the deposit and dissemination of scientific research documents, whether they are published or not. The documents may come from teaching and research institutions in France or abroad, or from public or private research centers.

L'archive ouverte pluridisciplinaire **HAL**, est destinée au dépôt et à la diffusion de documents scientifiques de niveau recherche, publiés ou non, émanant des établissements d'enseignement et de recherche français ou étrangers, des laboratoires publics ou privés.

PUBLIC DOMAIN

Distributed under a Creative Commons CC0 1.0 - Universal - International License



# ƏLİLLİYİ OLAN ŞƏXSLƏR VƏ İNKLÜZİV ƏMƏK BAZARI:
## problemlər və tövsiyələr

USAID
AMERİKA XALQINDAN

B | S | T The Black Sea Trust for Regional Cooperation
A PROJECT OF THE GERMAN MARSHALL FUND

*Bu nəşr/tədqiqat/hesabat ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) tərəfindən göstərilən dəstək sayəsində mümkün olmuşdur. Burada ifadə olunan fikirlər müəllif(lər)in fikirləridir v. ABŞ Hökümətinin və ya USAID-in fikirlərini mütləq olaraq əks etdirmir.

Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyaya əsasən, əlilliyi olan şəxslər - müxtəlif maneələrlə qarşılaşdığı zaman onların digərləri ilə bərabər səviyyədə cəmiyyətin həyatında tam və səmərəli iştirakına mane olan sabit fiziki, psixi, əqli və ya hissiyyat pozuntuları olan şəxslərdir.[1] Konvensiyanın 12-ci maddəsinə əsasən iştirakçı dövlətlər əlilliyi olan şəxslərin həyatın bütün sahələrində digərləri ilə bərabər səviyyədə hüquq qabiliyyətinə malik olduğunu tanıyırlar. Bu səbəbdən əlilliyi olan şəxslərin həyat səviyyəsi, təhsil səviyyəsi və onlara göstərilən xidmətin keyfiyyəti bir ölkənin səhiyyə, təhsil və iqtisadi inkişaf göstəricilərində mühüm yer tutur. Bunun nəticəsidir ki, həm milli, həm də beynəlxalq səviyyədə əlilliyi olan şəxslərin hüquqları ilə bağlı təminatlar artırılır. Ancaq təkcə əlilliyi olan insanların gündəlik həyatlarını düzgün davam etdirmələrini təmin etmək kifayət deyil, həm də əmək bazarları bu insanları lazımi vəzifələrdə və şəraitdə işlə və imkanlarla təmin edə bilməlidir. Çünki lazımi şərait yaradıldıqda cəmiyyətin bir parçası olan əliliyi olan şəxslər həm iqtisadi, həm də sosial məhsullar istehsal edə bilirlər.

Aztəminatlı qruplardan sayılan əliliyi olan şəxslər həm sosial, həm də iş həyatında bir çox problemlərlə üzləşirlər.
Bu problemlərin aradan qaldırılması üçün hökumət tərəfindən silsilə tədbirlər görülsə də, xüsusilə əmək bazarına daxil olmaq və əmək bazarında qalmaqda qarşıya çıxan əngəllər hələ də ciddi problem olaraq qalmaqdadır. Bu səbəbdən bu maneələrin müəyyən edilməsi və onların həlli üçün təkliflərin irəli sürülməsi böyük əhəmiyyət kəsb edir. Bu sənəddə Azərbaycanda əmək bazarında əlilliyin vəziyyəti və əlilliyi olan şəxslərin əmək bazarında üzləşdiyi problemlər təhlil edilərək bu istiqamətdə həyata keçirilən uğurlu təcrübələr əsasında tövsiyələr verilir.



[1] Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya, m.1, https://e-qanun.az/framework/15641



Beynəlxalq miqyasda əlilliyi olan insanlar tez-tez qeyri-mütənasib yoxsulluq və işsizlik səviyyəsi ilə üzləşirlər.
Bu baxımdan Azərbaycan da istisna deyil. Araşdırmalar əlilliklə yoxsulluq arasında birbaşa əlaqənin olduğunu göstərir. Əlilliyi olan şəxslərin əlilliyi olmayan həmyaşıdlarına nisbətdə işsiz qalma riski daha böyükdür və əlilliyi olan işləyən şəxslərin əksəriyyəti aşağı maaşlı qruplara daxildir.[2] Həmçinin onların işsizlik müddətləri digər işsizlərə nisbətən daha uzun olur və onlar iş tapdıqda çox vaxt daha az maaşlı, daha pis iş şəraiti və aşağı statuslu[3] olurlar.[4]

Açıqlanan son rəsmi statistikaya əsasən hazırda Azərbaycanda 600 mindən çox əlilliyi olan şəxs var.[5] Bu da ölkə əhalisinin təxminən 6 faizini təşkil edir. Statistik məlumatlara görə əlilliyi olan şəxslərin cəmi 5 faizi işləyir.[6]

Əlilliyi olan şəxslərin məşğulluğu əlilliyi olan şəxslərin işə götürülməməsi və həmin şəxslərin işə götürüldükdən sonrakı mərhələdə hüquqlarının pozulması aspektindən problematikdir.

[2] Magoulios, George N. ve Anna Trichopoulou , Employment Status For People With Disabilities In Greece, South-Eastern Europe Journal of Economics, səh, 37, 2012.
[3] “Əlilliyi olan şəxslərin ənənəvi olaraq öyrədildiyi işlərin çoxu, xüsusən sənayeləşmiş ölkələrdə artıq yoxdur.” https://www.ilo.org/wcmsp5/groups/public/---asia/---ro-bangkok/documents/publication/wcms_bk_pb_93_en.pdf səh. 53
[4] Barness, Colin (1992), Disability and Employment, University of Leeds: BCODB July, səh 23, 1992, http://disabilitystudies.leeds.ac.uk/archiveuk/Barnes/dis%20and%20emp.pdf.
[5] Azərbaycanda əlilliyi olan şəxslər sosial müdafiə, reabilitasiya, məşğulluq tədbirləri ilə əhatə olunublar, https://www.sosial.gov.az/post_408821 2020.
***Qeyd:*** Bir sıra mənbələrdə bu rəqəm 620 min nəfərə yaxındır, https://femida.az/az/news/95831/azerbaycanda-dovletdan-yardim-alan-620-min-elil-var. Bu barədə son iki ilə aid ümumi statistika nə Dövlət Statistika Komitəsinin, nə də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin saytında əks olunmayıb, https://stat.gov.az/source/healthcare/, https://www.sosial.gov.az/elilliyi_olan_sexsler.
[6] Beşinci Çağırış Azərbaycan Respublikası Milli Məclisinin vııı Sessiyası İclasının Protokolu № 52 Milli Məclisin iclas salonu, 23 noyabr 2017-ci il, https://meclis.gov.az/news-cari.php?id=310&lang=az

Son illər Azərbaycanda əlilliyi olan şəxslərin hüquqları ilə bağlı qanunvericilikdə müəyyən dəyişikliklər edilsə də, həmin qanunvericiliyin tətbiqiylə bağlı ciddi problemlər hələ də qalmaqdadır. Həmçinin “Əlilliyi olan şəxslərin hüquqları haqqında” yeni qəbul olunmuş qanun da bir çox suallar doğurur.[7]

Əlilliyi olan şəxslərin hüquqları sahəsində dövlət monitorinqinin aparılmasıyla bağlı müvafiq qərarın[8] qəbul edilməsindən 3 il keçməsinə baxmayaraq hələ də əlilliyi olan şəxslərin müyəssərlik hüququnun təmin olunmasıyla bağlı görülən işlərə dair hesabat verilməyib. Mediada sadəcə müəyyən qruplarla görüşlər təşkil edildiyi və müzakirələr aparıldığı qeyd edilsə də[9], bu müzakirələrin məzmun və nəticəsi geniş kütlələr üçün müyəssər deyil.

Qeyd edək ki, əlilliyi olan şəxslərin hüquqları sahəsində dövlət monitorinqinin həyata keçirilməsi qaydalarına əsasən əlilliyi olan şəxslərin hüquqları sahəsində dövlət monitorinqinin müşahidələri zamanı həyata keçirilən qiymətləndirmələr, əlilliyi olan şəxslərin hüquqları sahəsində dövlət monitorinqinin nəticələri və bu nəticələr üzrə hesabatlar və statistik məlumatlar ictimaiyyətin irad və təklifləri üçün açıq olmalıdır.[10]



[7] Shadow Reporting to the UN Committee on the Rights of Persons with Disabilities Implementation in Azerbaijan of the United Nations Convention on the Rights of Persons with Disabilities, 27 səh, 2020.
[8] Əlilliyi olan şəxslərin hüquqları sahəsində dövlət monitorinqinin həyata keçirilməsi qaydası, https://www.e-qanun.az/framework/43265
[9] DOST Agentliyində blogerlərlə görüş keçirilib, https://news.day.az/azerinews/1471770.html ) (“Əlilliyi olan şəxslərin hüquqları sahəsində dövlət monitorinqinin aparılmasının məqsəd və vəzifələri, görülən işlər” https://azertag.az/xeber/2182655 , 28 iyun 2022- ci il tarixində Əlilliyi olan şəxslərin hüquqları sahəsində dövlət monitorinqinin həyata keçirilməsi çərçivəsində növbəti görüş keçirilib http://dost.gov.az/news/434, Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi üzrə monitorinq çərçivəsində növbəti görüş olub, https://www.sosial.gov.az/post_614723.
[10] Əlilliyi olan şəxslərin hüquqları sahəsində dövlət monitorinqinin həyata keçirilməsi qaydası, maddə 11, 2019, https://www.e-qanun.az/framework/43265.



Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22.11.2005-ci il tarixli 213 saylı Qərarı ilə “Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvota tətbiq edilməsi Qaydası” müəyyən edilib.

Bu sənədə əsasən:

*“işçilərinin sayı 25-dən 50-dək olan müəssisələrdə işçilərin orta illik siyahı sayının 3 faizi (bir iş yerindən azolmamaqla) miqdarında; bu halda həmin iş yerlərindən biri, işçilərinin sayı 50-dən 100-dək olan müəssisələrdə işçilərin orta illik siyahı sayının 4 faizi miqdarında (işçilərin orta illik siyahı sayının 2 faizi, işçilərinin sayı 100-dən çox olan müəssisələrdə işçilərin orta illik siyahı sayının 5 faizi miqdarında (işçilərin orta illik siyahı sayının 2,5 faizi əlilliyi olan şəxslər üçün nəzərdə tutulub”*.[11]

İnzibati Xətalar Məcəlləsinin 194-cü maddəsinə əsasən[12], müvafiq icra hakimiyyətiorqanı tərəfindən göndərilmiş sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin onlar üçün kvota üzrə müəyyən olunmuş iş yerlərinə qəbul edilməməsinə görə min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə nəzərdə tutulmasına baxmayaraq, bu maddənin tələblərinə cavab verən və ya bu maddəni pozduğuna görə cəza təyin edilən qurumların sayı barədə ictimaiyyətə açıqlama verilməyib.

2020-ci ildə Dövlət Məşğulluq Agentliyinin 2049 nəfər əlilliyi olan şəxsin məşğulluğunu təmin etdiyi qeyd edilsə də, əlilliyi olan şəxslərin müraciətlərinin ümumi sayı açıqlanmayıb.[13]
2021-ci ildə isə 1348 nəfər əlilliyi olan şəxsin özünüməşğulluq proqramına cəlb edildiyi, həmçinin, Agentlik tərəfindən 2850 əlilliyi olan şəxsin əmək müqaviləsi əsasında münasib işlərlə təmin edildiyi bildirilib.[14]

[11] Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvota tətbiq edilməsi qaydası, https://e-qanun.az/framework/11456
[12] Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsi, https://e-qanun.az/framework/46960
[13] Azərbaycanda əlilliyi olan şəxslər sosial müdafiə, reabilitasiya, məşğulluq tədbirləri ilə əhatə olunublar, 2020, https://www.sosial.gov.az/post_408821
[14] 2021-ci ildə 1348 nəfər əlilliyi olan şəxs özünüməşğulluq proqramına cəlb edilib, 2021, https://sosial.gov.az/post_520742

Əlilliyi olan şəxslərin məşğulluğu məsələsində diqqət çəkən problemlərdən biri də əlilliyi olub məşğulluğu təmin olunan qadınların sayının əlilliyi olub məşğulluğu təmin edilən kişilərlə müqayisədə qat-qat az olmasıdır.

Məsələn, "Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən bildirilib ki, 2021-ci ilin 9 ayında 2646 nəfər əlilliyi olan şəxs işlə təmin olunub ki, onlardan cəmi 400 nəfəri əlilliyi olan qadınlar olub.[15]



[15] Əlilliyi olan şəxslərin işlə təminat imkanlarının artmasına hər kəs öz dəstəyini göstərməlidir, 2021, https://musavat.com/news/elilliyi-olan-sexslerin-isle-teminat-imkanlarinin-artmasina-her-kes-oz-desteyini-gostermelidir_837018.html



Yuxarıda aparılan təhlilləri və bu sahədə aparılan araşdırmaları ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, ölkədə əlilliyi olan şəxslərin əmək bazarına çıxışını əngəlləyən əsas səbəblər aşağıdakılardır:

- Bu mövzuda dövlət qurumları arasında koordinasiyanın olmaması;[16]
- Əlilliyi olan şəxslərin məşğulluğu ilə bağlı mənfi təsəvvürlər, bəzi seqmentlərin əlillərlə bağlı mənfi düşüncələri;
- Əlilliyi olan şəxslərin hüquqlarının (o cümlədən məşğulluq) təmin olunması istiqamətində aparılan monitorinq işlərinin zəif olması;
- Əlilliyi olan insanların əmək bazarına çıxışı üçün onların peşələrə yiyələnməsi və peşəyönümünü dəyişmələri üçün ciddi və əhatəli təhsil sisteminin mövcud olmaması;[17]
  Əlilliyi olan şəxslərin işləməsi üçün iş yerlərində zəruri infrastrukturun zəif olması;
- Əlilliyi olan insanlar üçün əmək fəaliyyəti zamanı nəzərdə tutulan bütün imtiyaz və güzəştlərlə bağlı xərclərin işəgötürənlərin üzərinə qoyulması (Bu hal işəgötürənləri əlilliyi olan şəxsləri işə götürməkdən çəkindirir və onlara münasibətdə gizli ayrı-seçkilik yaradır);
- Alternativ məşğulluq sisteminin yaradılmaması;

[16] Arthur O'Reilly, "The right to decent work of persons with disabilities", ILO, 2003, https://www.ilo.org/wcmsp5/groups/public/---asia/---ro-bangkok/documents/publication/wcms_bk_pb_93_en.pdf

[17] European Committee of Social Rights, "Conclusions 2020 AZERBAIJAN", 2021, https://rm.coe.int/rapport-aze-en/1680a1caa5

- Biznes qurumlarının üzərinə qoyulan vəzifələrin effektivsizliyi və bu qurumların stimullaşdırılması üçün nəzərdə tutulan güzəştlərin formal xarakter daşıması
(Bu biznes qurumlarının korporativ sosial məsuliyyətinin aşağı olmasına gətirib çıxarır);

- Mobillik imkanları, görmə və eşitmə qabiliyyəti olmayan və ya aşağı olan şəxslərin sərbəst və kənar yardım olmadan hərəkət etmələri (o cümlədən müvafiq ictimai nəqliyyatın olmaması) üçün yaşayış yerlərində hər hansı şəraitin olmaması;

- Əlilliyi olan insanların ətraf sosial mühitlə uyğunlaşmaq problemləri;

- Beynəlxalq standartlara zidd olaraq bir çox hallarda müvafiq icra hakimiyyəti orqanı tərəfindən əlillik dərəcəsi müəyyən edərkən şəxsin sertifikatında əmək qabiliyyətli olmadığının göstərilməsi;[18]

- Sosial müəssisələrin fəaliyyəti və əlilliyi olan şəxslərin əmək fəaliyyəti ilə bağlı qanunvericilikdə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinə dair fəaliyyət planlarının olmaması və həmin aktların formal xarakter daşıması;

- Əlilliyi olan şəxslərə qarşı ayrı-seçkiliyə yol vermiş şəxsin məsuliyyəti məsələsinin qanunvericilikdə həllolunmaması;

- Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün işyerlərində müəyyən edilən kvotanın dövlət orqanları, mərkəzi və yerli seçkili orqanlar və elm və ali təhsil müəssisələrinə şamil edilməməsi.[19]



[18] Demokratik Təşəbbüslər İnstitutu "Əlilliyi olan şəxslərin məşğulluğu ilə bağlı qanunvericiliyin analizi və praktiki vəziyyətə dair araşdırma sənədi", səh. 12, https://www.idi-aze.org/files/pdf/2021-11-22/K3DkHPy19hDPXpW1woEMGPfMzQMiSw4FLPYHdRLB.pdf
[19] Kvota şamil edilməyən müəssisələrin Siyahısı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 22.11.2005-ci il tarixli 213 nömrəli qərarı, https://e-qanun.az/framework/11456



## Maliyyə dəstəyi

Məhsuldarlıqda yaranan fərqləri aradan qaldırmaq üçün əmək haqqı subsidiyaları əlilliyi olan işçilərin məşğulluğunun təşviq edilməsində işəgötürənlərə ən çox verilən maliyyə dəstəklərindən biridir.
Bəzi ölkələrdə bu cür dəstək müəyyən vaxtla məhdudlaşır. Məsələn, İsveçdə bu müddət dörd il, Almaniyada isə səkkiz ilə qədər nəzərdə tutulub.[20]
Subsidiyanın məbləği isə dəyişkəndir. Məs., Avstriyada bu, işin birinci ilində tam əmək haqqının 80 faizinə qədər ola bilər.[21]

İşəgötürənlərə verilən digər maliyyə dəstəyinə aşağıdakılar daxildir:

- şirkət binalarını və ya avadanlıqlarını əlilliyi olan işçilərin tələblərinə uyğunlaşdırmaq üçün işəgötürənlərə müəyyən hallarda verilən iş yeri/avadanlıq qrantları (Məsələn İrlandiya);[22]

- təlim və təhsil dəstəyi üçün nəzərdə tutulan qrantlar;[23]

- hər yeni əlilliyi olan işçi üçün vergi güzəştləri (vaxt məhdudiyyəti ola bilər, məsələn, İtaliyada bu müddət üç ildir);[24]

- əlilliyi olan işçilər üçün sosial sığorta haqlarının azaldılması.[25]

[20] Yuxarıda 16, səh. 54
[21] Yenə orada
[22] Legislation in the Member States, səh 66, https://ec.europa.eu/employment_social/soc-prot/disable/socpart/comp05_en.pdf
[23] Yuxarıda 16, səh. 54
[24] Yenə orada
[25] Yenə orada

# Kvota sistemi

Kvota sistemləri 1923-cü ilin sonunda Almaniya, Avstriya, İtaliya, Polşa və Fransada tətbiq edilməyə başlayıb. Bu sistemə əsasən işəgötürənlər müharibə ilə əlaqədar əlillik təyin edilmiş şəxsləri işə götürməyə borclu idilər. Digər Avropa dövlətləri isə  bu sistemi ikinci dünya müharibəsindən sonra əlilliyi olan şəxslər arasında işsizlik səviyyəsinin azaldıması üçün tətbiq etməyə başlayıb.[26]

Hazırda dünyanın əksər ölkələrində əlilliyi olan şəxslərin məşğulluğunu təmin etmək üçün kvota sistemi tətbiq edilir. Bütün kvota sistemləri işəgötürənlərdən minimum müəyyən sayda əmək qabiliyyətini itirmiş işçini işə götürməyi tələb edir. Lakin bu tələbin məcburi və ya könüllü xarakter daşıması və işəgötürənin yerinə yetirmədiyi halda məruz qalacağı sanksiyaların xarakteri və effektivliyi ilə bağlı fərqlər mövcuddur.

Avropa ölkləəri üçün kvotaların həddi müəssisənin işçilərinin sayına uyğun olaraq 2%-dən 10%-ə qədər dəyişir.[27] Bəzi ölkələrdə kvotadan artıq sayda əlilliyi olan şəxslərin işə götürülməsi üçün bəzi güzəştlər müəyyən edilib.

Məsələn, Lüksemburqda kvotadan daha çox əlilliyi olan işçiləri işə götürən müəssisələr sosial sığorta haqlarında azalma hüququna malikdirlər.[28] İtaliyada ən azı 30 faizi əlilliyi olan işçi qüvvəsi olan sosial kooperativlər sosial sığorta haqlarından azad edilə bilər.[29]

Digər tərəfdən bəzi ölkələrdə isə müəssisələr kvotanı doldurmadıqda dövlət büdcəsinə müəyyən məbləğdə vəsait ödəməli olurlar. Məsələn, Yaponiyada kvotadakı saya çatmayan müəssisələrə rüsum tətbiq edilir. Yığılan rüsumlar kvotadan artıq əlilliyi olan işçiləri işə götürən müəssisələrə qrant kimi ödənilir.[30]



[26] Yuxarıda 16, səh. 54
[27] Agefiph, Employment of people with disabilities, səh. 13, 2022, https://www.agefiph.fr/sites/default/files/medias/fichiers/2022-07/Agefiph_Europe-Handicap_Anglais_4G.pdf
[28] Yuxarıda 22, səh. 68.
[29] Yuxarıda 16, səh. 55.
[30] Yenə orada, səh. 59.



Beləliklə, əlilliyi olan şəxslərin məşğulluq probleminin aradan qaldırılması üçün yuxarıda aparılan təhlillərə və bu sahədəki digər əlaqəli sənədlərə[31] əsasən aşağıdakılar tövsiyə edilir:

- Əmək Məcəlləsində əlilliyi olan şəxslər üçün nəzərdə tutulan imtiyaz və güzəştlərin qarşılanması, habelə müəssisələrdə əlilliyi olan şəxslər üçün tələb olunan infrastrukturun yaradılması və saxlanılması üçün tələb olunan xərclərin bir hissəsinin dövlət tərəfindən yaradılan xüsusi fond(lar) tərəfindən qarşılanması;

- Əlilliyi olan şəxslərin dövlət sektorunda işə qəbul edilməsi. Dövlət qurumlarına da kvotanın şamil edilməsi;

- Əlilliyi olan şəxslərin açıq (rəqabətli) əmək bazarında rəqabət qabiliyyətinin artırılması və onların əlilliyi olmayan şəxslərlə birgə əmək bazarında iştirakına şəraitin yaradılması üçün onların təhsil səviyyəsinin və peşə bacarıqlarının artırılmasına yönələn uzunmüddətli və qısamüddətli təhsil sisteminin formalaşdırılması;

- Əlilliyi olan insanların təhsil və əməyə çıxışına yardım edən vasitələrin istehsalı ilə məşğul olan müəssisələrin yaradılması və belə müəssisələrin hər növ vergilərdən azad edilməsi;

- Əlilliyi olan şəxslərin özünü məşğulluğunun stimullaşdırılması üçün özünü məşğul əlilliyi olan şəxslərin vergilərdən azad edilməsi və onlara əmək alətlərinin və iş yerlərinin yaradılması üçün əvəzsiz maliyə dəstəyinin verilməsi, habelə onların istehsal etdiyi məhsullar üçün müvafiq satış şəbəkələrinin yaradılması;

[31] S. Məmmədov, "Əmək və məşğulluq sahəsində dövlət siyasəti təhlil sənədi", "QHT Nəşriyyatı" mətbəəsi, Bakı, 2014, 64 səh,
Kənarlaşmadan Bərabərliyə Əlilliyi olan şəxslərin hüquqlarının reallaşdırılması Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyası ilə bağlı Parlament üzvləri üçün Stolüstü kitab, səh 129, https://sosial.gov.az/uploads/files/2022/11/%C6%8Fos-parlament-uzvl%C9%99ri-ucun-stolustu-kitab.pdf, Yuxarıda 7

- Müvafiq icra hakimiyyəti orqanı tərəfindən əlillik müəyyən olunarkən əmək fəaliyyətinin mümkün olmamağının göstərilməməsi və əlilliyi olan şəxslərin əmək bazarına çıxışını əngəlləyən imperativ normaların tövsiyə xarakterli normalarla əvəz edilməsi;

- Əlilliyi olan şəxsləri kiçik sahibkarlıqla məşğul olmağa təşviq etmək məqsədilə onlar üçün vergi yükü və dövlət qeydiyyatı zamanı inzibati maneələrin maksimum dərəcədə azaldılması, dövlət orqanlarına verilən hesabatların sadələşdirilməsi, həmçinin sosial sahibkarlıqla bağlı qanunvericilik bazasının yaradılması.











### Qədir Qədirli

Dövlət İdarəçilik Akademiyasının hüquqşünaslıq ixtisasını bitirib. Sosial Hüquqlar Mərkəzində hüquqşünas kimi çalışır, eyni zamanda vətəndaş cəmiyyəti üzvüdür.

### Səxavət Yusifov

Hazırda Fransanın Montpellier universitetində "Xüsusi hüququn əsasları (General Private Law)" proqramında magistr təhsili alır. Sosial Hüquqlar Mərkəzinin əməkdaşıdır.

### Məhəmməd Kekalov

Azərbaycan Dövlət İqtisad Universitetinin məzunudur. Sosial sahibkardır və əlilliyi olan şəxslərin hüquq müdafiəçisidir.

AMERİKA XALQINDAN

The Black Sea Trust for Regional Cooperation
A PROJECT OF THE GERMAN MARSHALL FUND

/kekaloveadaptive

/kekaloveadaptive

www.kekalove.com